# 10 may ümummilli lider Heydər Əliyevin doğum günüdür

## Qəbələdə ümummilli liderin 95 illiyi izdihamla qeyd olunub

***Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqının tarix boyu yetişdirdiyi nadir və bənzərsiz şəxsiyyətlərdəndir. Bütün həyatını xalqına və dövlətinə xidmətə həsr edən ulu öndər bu müqəddəs amal uğrunda ən çətin maneələrə, problemlərə mərdliklə sinə gərən millət fədaisi kimi hər zaman böyük ehtiramla xatırlanır.***

***Müstəqil Azərbaycan dövlətinin qurulması, inkişaf etdirilməsi kimi böyük tarixi missiyanı yerinə yetirmək qüdrətinə malik olan ümummilli lider xalq və Vətən qarşısında misilsiz xidmətlərinə və müstəsna tarixi roluna görə Azərbaycan xalqının həqiqi lideri və xilaskarı kimi şərəfli missiyanı böyük əzmlə yerinə yetirmişdir.***









Qəbələdə ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunan ümumrayon tədbiri keçirilib.

Tədbirdə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatlarının kollektivləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Heydər Əliyev adına parka toplaşan izdiham əvvəlcə ulu öndərin burada ucaldılmış abidəsi önünə gül dəstələri qoyaraq xalqımızın ümummilli liderinin əziz xatirəsinə böyük ehtiramlarını bildiriblər.

Sonra Qəbələ Mədəniyyət Mərkəzində davam edən tədbirdə Səbuhi Abdullayev ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətinə, böyük və əvəzsiz xidmətlərinə dair ətraflı məruzə edib. RİH başçısı qeyd edib ki, Azərbaycanın dövlət müstəqilliyinin qorunması, suveren bir ölkə kimi qarşılaşa biləcəyi problemlərin həllinə nail olunması istiqamətində real tədbirlər həle ulu öndərin sovet hakimiyyəti illərində respublikamıza rəhbərlik etdiyi dövrdə formalaşdırılıb. Səbuhi Abdullayev bildirib ki, məhz Heydər Əliyevin müstəqillik dövründə hakimiyyətə qayıdışı təhlükə altında olan dövlətçiliyimizi xaos və böhran məngənəsindən çıxarıb, vətəndaş qarşıdurmasının qabağı alınıb, atəşkəs rejiminin tətbiqinə nail olunub. Məruzədə bildirilib ki, Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı olan ulu öndərin müdrik siyasətinin, dönməz əqidəsinin və tarixi uzaqgörənliyinin sayəsində müasir, suveren dövlətimizin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olunub.

Rayon icra hakimiyyətinin başçısı nitqində ümummilli lider Heydər Əliyevin müstəqillik yollarında ilk qədəmlərini atan Azərbaycanın ən mürəkkəb və taleyüklü dövründə dövlətə rəhbərlik məsuliyyətini üzərinə götürərək xilaskarlıq və quruculuq missiyasını böyük şərəflə yerinə yetirdiyini bildirib. O, Heydər Əliyevin sözün əsl mənasında müstəqil Azərbaycan dövlətinin inkişafının bütün istiqamətlərində, ən əsası isə ölkəmizin dövlət müstəqilliyinin daimiliyini, əbədiliyini, dönməzliyini təmin edən mükəmməl milli dövlətçilik ideologiyasını formalaşdırdığını və Prezident İlham Əliyevin şəxsində bu ideologiyanı, Azərbaycanın sosial, iqtisadi, siyasi, mədəni tərəqqisini uğurla həyata keçirə biləcək ən layiqli davamçısını yetişdirdiyini vurğulayıb.

Səbuhi Abdullayev ölkə başçısının rəhbərliyi altında Azərbaycanın son illərdə müstəqilliyinin daha da möhkəmləndiyini, sosial-iqtisadi, siyasi, diplomatik və ordu quruculuğu sahələrində çox böyük uğurlara imza atdığını diqqətə çatdırıb.

Tədbir mədəniyyət mərkəzinin təqdim etdiyi ədəbi-bədii kompozisiya ilə davam etdirilib.

Sonda ulu öndərin həyatı və fəaliyyətindən bəhs edən "Dahi şəxsiyyət" sənədli filmi nümayiş olunub.

**Varis YAQUBOV,**
**İlkin Vəlizadə (foto).**
**"Qəbələ"**

# 9 May Qələbə Günüdür

## Faşizm üzərində qələbənin 73-cü ildönümü təntənə ilə qeyd edilib

***Faşizm üzərində tarixi qələbənin 73-cü ildönümü Qəbələdə təntənə ilə qeyd edilib.***

***Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev, idarə, müəssisə və təşkilatların rəhbərləri, ictimaiyyətin nümayəndələri şəhərdəki Ana abidəsinə gələrək önünə gül dəstələri qoyublar.***





Ziyarət başa çatdıqdan sonra müharibə veteranları və arxa cəbhənin iştirakçıları onlar üçün hazırlanmış şirniyyat stolu ətrafına toplaşıblar. Söhbət əsnasında rayon hcra hakimiyyətinin başçısı Səbuhi Abdullayev bəşəriyyətə böyük fəlakətlər gətirən bu müharibədə yüz minlərlə azərbaycanlının da iştirak etdiyini, onların bir qisminin həlak olduğunu, digərlərinin isə qələbədən sonra Vətənə qayıdaraq sonrakı quruculuq illərində iştirak etdiklərini bildirib.

Ulu öndər Heydər Əliyev tərəfindən 1990-cı illərin əvvəllərində unudulmağa çalışılan Böyük Vətən Müharibəsi veteranlarına diqqət və qayğının artırıldığını, onların məişət və sosial problemlərinin həlli ilə əlaqədar konkret tədbirlərin görüldüyünü qeyd edən icra başçısı Heydər Əliyev siyasətini bu gün layiqincə davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin müvafiq sərəncamları ilə hər il Böyük Vətən Müharibəsi veteranlarının sosial vəziyyətinin yaxşılaşdırıldığını, onların problemlərinin daim diqqətdə saxlanıldığını vurğulayıb.

Müharibə veteranları və arxa cəbhənin iştirakçıları onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**